5.Маркова А.К. //Вопросы психологии. 1978., №3. с.140

**ИНТЕЛЛЕКТУАЛЬНОЕ РАЗВИТИЕ И ОСНОВНЫЕ ПРИОРИТЕТЫ КАЧЕСТВА ПРЕПОДАВАНИЯ**

***Проф. Ибрагимов Джафар Гусейн оглы***

***Резюме***

Особое внимание уделяется на качество образования в психологии. Факторы, определяющие успешность обучения на уровне общего интеллекта. Учебная мотивация учащихся. Использование новых инновационных методов. Влияние отношений учитель – ученик – родитель на качество образовательной деятельности. Формирование логического мышления у учащихся и обогащение памяти новыми знаниями. Появление новых концепций в процессе проводимых реформ.

**INTELLECTUAL DEVELOPMENT AND THE MAIN PRIORITIES OF THE QUALITY OF TEACHING**

***Prof. Ibrahimov Cafar Huseyn***

***Summary***

Particular attention is paid to the quality of education in psychology. Factors determining the success of training at the level of general intelligence. Learning motivation of students. Use of new innovative methods. The influense of teacher – student – parent relationships on the quality of educational activities. Formation of logical thinking in students and enrichment of memory with new knowledge. The emergence of new concepts in the process of ongoing reforms.

***Rəyçi: Dosent Aslanova Zülalə***
***Psixologiya kafedrasının 01 fevral 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olma tarixi 14 mart 2023-cü il***

**UOT: 82.**

# AŞIQ ŞƏMŞİR VƏ SƏMƏD VURĞUN DOSTLUĞU

***Ömərova Ələviyyə Vaqif qızı***
***Bakı Dövlət Universiteti Qazax filialı***
***alaviyya.omarova@mail.ru***

**Xülasə*:*** *Səməd Vurğunla Aşıq Şəmşir arasında gözəl dostluq olmuşdur. Səməd Vurğun elə ilk görüşdən bir dost kimi Aşıq Şəmşirin qəlbində özünə əbədi yuva qurmuşdur. Hətta bu dostluq Şəmşir üçün qardaşlıqdan da əziz olmuşdur. Ona görə Aşıq Şəmşir Səməd Vurğunun ölümündən sonra ona yazdığı bir şeiri məhz "Qardaş" adlandırmışdır. Bu şeirin "Qardaş" adlandırılması qətiyyən təsadüfi deyil.*

*Səməd Vurğunun ölümündən sonra Aşıq Şəmşir çox soyuq üzlərlə, yad baxışlarla qarşılaşmış, Səməd Vurğunun ona qardaş olduğunu daha yaxından hiss etmişdir.*

*Aşıq poeziyasında dağlar mərdlik, əzəmət, ucalıq rəmzi kimi göstərilməklə yanaşı, onun füsunkar gözəllikləri sənətkarları həmişə vəcdə gətirmiş və şeirlərinin əsas mövzusuna çevrilmişdir. Ulu babalarımız dağı mifoloji düşüncənin obyektinə çevrilmiş, ona tapınmış, ulu əcdad sayaraq sığınmışdır. Təsadüfi deyildir ki, dağ obrazının çox fəal məna sisteminə təkcə aşıq şeirində deyil, nağıllarımızda, dastanlarımızda və s. sıx-sıx rast gəlirik. Dağa inam, ona sığınma, ondan kömək diləmə o qədər qüvvətli olmuşdur ki, dağ Azərbaycan folklor düşüncəsinin ən fəal və həmişəyaşar obrazına çevrilmişdi.*

**Açar sözlər:** Aşıq Şəmşir, Səməd Vurğun, dostluq, qardaş, deyişmə, poeziya.
**Ключевые слова:** Ашуг Шамшир, Самед Вургун, дружба, брат, состязание, поэзия.
**Key words:** Ashig Shamshir, Samad Vurgun, friendship, brother, change, poetry

Aşıq yaradıçılığında, aşıqlıq sənətində XX əsrin ikinci yarısında baş verən əsaslı dönüş mərhələsi əlamətdar hadisələrlə zəngndir. Ən əsası odurki, bu dövrdə artıq aşıq yaradıcılığı, aşıq ədəbiyyatı yazılı ədəbiyyatın sıx əlaqələri yaranmağa başlamışdır. Bunun ən baris nümunələrindən biri Aşıq Şəmşirlə Səməd vurğunun görüşməsi və onların məşhur deyişməsidir. Həmin görüşü xüsusi qiymətləndirmək lazımdır. Çünki bu, aşıq sənəti tarixində nadir hadisələrdəndir və çox böyük əhəmiyyət kəsb edir.

Demək, XX əsrin 50-ci illərində artıq yazılı poeziya ilə aşıq ədəbiyyatımız qovuşur. Səməd Vurğunun şeirlərinin aşıqlar tərəfindən ifa olunması, Aşıq Şəmşirin kitablarının işıq üzü görməsi, görkəmli şairlərlə görüşməsi, şeirləşməsi, şeirlərinin mətbuatda vaxtaşrı dərc edilməsi həmin qovuşmanın, yaxınlaşmanın, doğmalaşmanın, qaynayıb-qarışmanın bariz göstəricisidir. Elə ustad aşığın Səməd Vurğunla görüşünü şərtləndirən səbəblərdən biri də onun şeirlərindəki poetika, bədii mükəmməllik idi ki, necə deyərlər, böyük sənətkarı sorağa salmışdı. Bu mükəmməlliyin, Aşıq Şəmşir şeirlərinin forma, məzmun və bədii gözəlliyinin əsas səbəbi müəllifin haqq vergisi, fitri istedadıyla yanaşı, eyni zamanda güclü mütaliəsi, savadı, zəkası, yazılı ədəbiyyatımıza da yaxından bələdliyi idi.

1955-ci ildə Kəlbəcərdə xalq şairi Səməd Vurğunla böyük el sənətkarı Aşıq Şəmşir görüşür. Görüş sonradan əsl əfsanəyə çevrilir. Səməd Vurğunla Aşıq Şəmşir hətta o görüşdə deyişirlər də…Səməd Vurğunun sonradan "Unutmaz bu oba, bu mahal məni" misrası ilə başlayan qoşması da həmin deyişmənin tərkib hissəsidir. 1955-ci ildə Səməd Vurğun xəstə idi və ürəyinə nəsə dammışdı. Odur ki, fürsətdən istifadə edib Aşıq Şəmşirə bu vəsiyyətini bir bəndlə deyir və o bənd sonradan dilər əzbəri olur:

Aşıq Şəmşir, Dəli dağdan keçəndə
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal məni (2,s.6).

Aşıq sənətinin pərəstişkarı olan Səməd Vurğun Aşıq Şəmşirin sazına və sözünə böyük ehtiramla yanaşmışdır. Bu, ilk növbədə Səməd Vurğunun bir insan və sənətkar kimi pərvəriş tapdığı ədəbi mühitlə bağlı idi. O, sazlı-sözlü Qazaxda doğulub, boya-başa çatmışdı. Mayası sazla-sözlə tutulmuşdu. Təsadüfi deyildir ki, XX əsr Azərbaycan şeirinin inkişafında müstəsna xidməti olan Səməd Vurğun bütün yaradıcılığı boyu xalq şeirinin – heca poetikasının «vurğunu» olaraq qaldı. O, heca şeirini müasir poetik düşüncənin bütün poetik situasiyalarında sınayaraq ona yeni ömür verdi. Bu cəhətdən, Aşıq Şəmşir Səməd Vurğun üçün xalq poeziyasını, klassik aşıq ənənələrini təcəssüm etdirən canlı yaddaş idi. Onun Şəmşirə «Yada sal məni» deyə xitab etməsi də bununla bağlıdır: S.Vurğun üçün Şəmşirin «yadına düşmək», əslində, Şəmşir poeziyası vasitəsilə aşıq sənəti və yaradıcılığının əsrləri haqlayan yaddaş tarixinə düşmək demək idi (6,s.34).

XVIII yüzildən klassik ədəbiyyatımızda aparıcı mövqeyə çıxan xalq şeiri dediyimiz heca vəznli poeziya zamanla aşıq ədəbiyyatı ilə o qədər yaxınlaşdı ki, hətta aşıq ədəbiyyatının bir çox tədqiqatçıları da aşıq şeirinin yazılı ədəbiyyatdan fərqlənməməsini böyük uğur kimi təqdim etməyə başladılar. Aşığın və haqqında çox yazılan Aşıq Şəmşirin böyüklüyü divan şairləri və ya müasir hecaçı şairlərlə müqayisədə üzə çıxmır, ənənəyə bağlılığında, ənənəni yaşatmasında, aşıqlığın qayda-qanunlarını bilməsində, məclis aparmasında, dastan söyləməsində və s. özünü göstərir. Görünür, yazılı ədəbiyyatda dörd yüz ilə yaxın davam edən heca vəzninin hökmranlığına son qoyulmayınca və poeziya yeni formaları aparıcı mövqeyə çıxarma - yınca aşıqlarla şairləri, folklorla ədəbiyyatı fərqləndirmək asan olmayacaq. Bu

təmayül, çox təəssüf ki, yarım-yapalaq hazırlığı olan maraqlıların qələmindən çıxan aşıq sənəti ilə bağlı yazılar üçün artıq xarakterik olmağa başlayır.

Yaradıcılığının əsas hissəsi XX yüzilin 30- cu illərindən sonraya düşən XX yüzil aşıq sənətinin tanınmış nümayəndələrindən biri olan Aşıq Şəmşirin böyüklüyü, əgər deyilənlərə inansaq, qırxdan çox şagird yetişdirməsi, çox sayda dastan ifa etməsində, yeni dastan yaratmasında, aşıq şeirində özünəməxsus yol aça bilməsindədir. Aşıq Şəmşir həm şəxsiyyəti, həm də mənəviəxlaqi cəhətləri ilə mükəmməl bir aşıq, söz və saz bilicisi kimi Qurbanidən, Aşıq Abbasdan, Aşıq Valehdən, Xəstə Qasımdan, Aşıq Ruhsatidən, Aşıq Alıdan, Aşıq Şenlikdən, Aşıq Ələsgərdən, Aşıq Sümanidən, Aşıq Hüseyn Bozalqanlıdan sonra aşıq sənətinin zirvələrindən sayılmağı haqq etmişdir. Folklorumuz, aşıq sənətimiz üçün bir böyük problem də fakelor məsələsidir.

Aşıq Şəmşir 1907-1908-ci illərdən şeir yazmağa, saz çalmağa başlayaraq sənətin ilk sirlərini də atası şair Qurbandan öyrənmişdir. Şair Qurban oğlunun qeyri-adi istedada malik olduğunu görüb ona hansı ustadlardan nəyi və necə öyrənməyin yollarını göstərmişdi. Söz var, deyirlər, ustad oğlundan şəyird olmaz. Bu mənada şair Qurbanın ocağına yığışan, onun evinə gələn və sazımızın, sözümüzün beşiyi başında duran Dədə Ələsgər kimi sənətkarlar Aşıq Şəmşirin sonrakı həyatı üçün təkan rolunu oynadılar. Şəmşir öz xatirələrində dönə-dönə vurğulayır ki, Aşıq Ələsgərlə Qurban ocağının xüsusi yaxınlığı, dostluq əlaqələri olub. Onların saz-söz məclislərində boya-başa çatan, sonralar özü də ustad kimi yetişib, ulu sənətin incə məqamlarını, sirlərini sinəsinə yığıb, Göyçə– Kəlbəcər mühitinin deyim, ifaçılıq keyfiyyətlərini mənimsəyib. 1915-ci ildən etibarən müstəqil aşıqlıq eləməyə, məclislər yola salmağa başlayıb. Məclisdən-məclisə, toydan-toya püxtələşib, gənclik çağlarında isə öz elində-obasında tanınıb, sevilib. Bu zamandan o, artıq klassik dastanlarımızın, eləcə də yeni yaranıb formalaşmaqda olan müasir dastanların çoxunu bilir, məclislərdə, el-oba yığnaqlarında danışaraq, dinləyicilərin rəğbətini, sevgisini qazanır (3,s.29).

Aşıq Şəmşirin and yeri üz tutduğu Kəlbəcər torpağıydı. Azərbaycanın "qızıl külçəsi", gözəlliklər diyarı Kəlbəcər onun ilk və son nəğməsi idi. Səksən yeddi illik ömrünü bu qayalar, dağlar, çiçəklər, bulaqlar, şəlalələr səltənətində keçirən qoca qartalı heç kəs bu torpaqdan qopara bilmədi. Hətta dünyalar qədər sevdiyi istəkli oğlu Qənbər müəllim belə. Şəhərə köçmək istəyən Qənbər müəllim Aşıq Şəmşiri də özüylə aparmaq istəyirdi. Dədə qətiyyətlə bundan imtina edir. Görkəmli şairimiz Məmməd Aslan bu anı çox gözəl təsvir edib. Bu, ocağa, yurda sevginin ən unudulmaz, parlaq nümunəsidir: "Oğlum, məndən əvvəl gərək, odey, Murovun Yeddiqardaş silsiləsinin Çayqovuşanda qanın hər an açılanda gözümüzə görünən o zirvəsini köçürüb, bundan sonra da məni binəlgan olacaq o yerə aparasan. Anan vəsiyyətimi sənə deməyibmi? Güllüyə tapşırmışam: məni orda – "Uşaq qəbiristanlığı"nın qonşuluğunda dəfn edərsiniz. Vəsiyyətimi pozsanız, haqqımı sizə halal etmərəm" (1,s.13).

Səməd Vurğunun ikinci bir tapşırığına görə yenidən Bakıya gəldikdə isə, şairin sorağını Moskva xəstəxanasından alan Aşıq Şəmşir bu həsrətə dözməyib Moskvaya bir məktub yazdı:

Çəkir həsrətini bizim Kəlbəcər,
Böyük şair, bu dağlara bir də gəl!
Dedin: "Vurğun, demə, gəldi-gedərdi..."
Verdiyin o düz ilqara bir də gəl.

Bir də ki, Səməd Vurğun onu o qədər yüksək qiymətləndirib, sevib, dəyər vermişdi ki, daha da ərköyün olmuşdu.

Saza, sözə vurğunluq Şəmşiri lap uşaq vaxtlarından Goranboy rayonunun Xanqərvənd kəndində yaşayan ustad Aşıq Sarının yanına apardı. Şeirlərindən ana dilimizin şəhdi-şirəsi, bal şirinliyi süzülən Aşıq Sarıdan15 ustad dərsləri, ustad xeyir-duası almaq böyük xoşbəxtlik idi. Sənətin sehrini, sirrini böyük ustaddan öyrənəndən sonra artıq 1915-ci ildən Aşıq Şəmşir

müstəqil aşıqlıq etməyə başladı. Məclis dən-məclisə, toydan-toya yetkinləşdi, püxtələşdi. O, hələ gənc ikən öz elində, obasında tanınır, sevilirdi (4,s.82).

Aşıq sənəti öz mahiyyətində milli kimlik mücadiləsini, müstəqil dövlətçilik düşüncəsini, ana dilinə mehr-məhəbbəti, ana yurda vurğunluğu, qəhrəmanlıq, mərdlik və halallığı cəmləşdirir. Ona görə də bu ulu sənətin dilimiz, ruhumuz və dövlətçiliyimizlə birgə yaşaması zəruridir. Bu səbəbdən də saz havalarının, dastanların, aşıq şeirinə məxsus olan milli-tarixi keyfiyyətlərin qorunması olduqca vacibdir. Aşıq şeirləri böyük əksəriyyətlə saz havalarının müşayiəti ilə oxunması nəzərdə tutulan poetik mətnlərdir. Bu poetik mətnlərin çox qismi heca, az bir hissəsi (divani, müxəmməs və müsəddəs) isə əruz vəznindədir. Hər bir poetik mətn saz havasının müşayiəti ilə oxunduğu üçün onların qarşılıqlı şəkildə uzlaşması şərtdir (5,s.7).

Aşıq şeirlərinin böyük əksəriyyəti müəyyən bir hadisə-əhvalatla bağlı yaranır. Aşıq gördüyü, iştirak etdiyi bir hadisənin, başına gələn bir əhvalatın təsiri ilə düzüb qoşduğu şeirdə həmin hadisə və əhvalata, oradakı ayrı-ayrı məqamlara birbaşa və ya dolayı işarələr edir. Sənətkarın başına gələn əhvalatı və bu əhvalatla bağlı olan şeiri ya onun özü, ya da hadisənin iştirakçıları danışaraq dildən-dilə, eldən-elə yayırlar.

***Ədəbiyyat***

1. Cəmilə Çiçək. "Kəlbəcərin saz qalası" Bakı: Azərnəşr, 2013.-368 s.
2. Cəmilə Çiçək "Səməd Vurğun- Aşıq Şəmşir dastanı" Bakı: Azərnəşr 2014.-208 s.
3. İ. M. Məmmədli "Kəlbəcərin söz sərvəti" Bakı: Sabah, 2005.-352 s.
4. M. M. Aslan "Saxla izimi, dünya" Bakı: İşıq,1989.-200 s.
5. M. Qasımlı, M.Allahmanlı "Aşıq şeirinin poetik biçimləri və çeşidləri" Bakı: 2018-220 s.
6. S. M. İsayeva "Aşıq Şəmşirin poetikası" Bakı, 2012.-248 s.

## ДРУЖБА АШУГА ШАМШИРА И САМЕДОМ ВУРГУНОМ

***Омарова Алавия Вагиф кызы***

***Резюме***

Между Самед Вургуном и Ашугом Шамширом была замечательная дружба. С первой встречи Самед Вургун "свил гнездо друга" в сердце Ашуга Шамшира. Даже эта дружба была для Шамшира дороже братства. Поэтому стихотворение, написанное Ашугом Шамширом на смертъ Самеда Вургуна называется «Брат». Это не случайно.

После смерти Самеда Вургуна Ашуг Шамшир столкнулся с очень холодными лицами и странными взглядами и еще сильнее почувствовал братство Самеда Вургуна.

В поэзии Ашуга горы изображаются как символ отваги, величия, но их красота всегда огаровывала художников и становилась главной темой стихотворений. Наши предки превратили гору в объект мифологического мышления, поклонялись ей и считали его великим предком и приютились к ней. Не случайно мы часто сталкиваемся с весьма активной системой значений образа горы встречаемся с этим не только в ашугской поэзии, но и в наших сказках, былинах и т.д. Вера в гору, укрытие в ней, прошение от нее помощи была настолько сильна, что гора стала самым активным и вечноживым образом азербайджанской фольклорной мысли.

## FRIENDSHIP BETWEEN ASHIG SHAMSHIR AND SAMED VURGUN

***Omarova Alaviya Vagif gizi***

***Summary***

There was a healthy friendship between Samad Vurgun and Ashug Shamshir. Samad Vurgun was enthorned in the heart of Ashig Shamshir at the first sight. For Ashug Shamshir this friendship was even more than brotherhood. That is why Ashug Shamshir called one of

his poems “Brother” which he had dedicated to Samad Vurgun after his death. Calling this poem “Brother” was not a coincidence at all.

After Samad Vurgun’s death, Ashig Shamshir met people with cold and stange glances and he felt deeply that Samada Vurgun was like a brother to him.

Besides being shown as a symbol of manliness, greatness, loftiness in ashug poems, the mountains and their fascinating beauty always inspired poets and became the main subject of their poems Our ancestors considered the mountains as the object of mythological toughts, worshiped it and took refuge in it. It is not a coincidence that we often come across the active meaning system of the character of mountain not only in ashug poems, but also in stories, sagas and so on. Belief in mountain, taking refuge in it, wanting help form it were so strong that the montain became the most active and longlived character of Azerbaijani Folklore.

***Rəyçi: dossent İbrahimov Cəfər***
***BDU-Qazax filialı pedaqoji fənlər kafedrasının 15 mart 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olma tarixi 03 aprel 2023-cü il***

**UOT: 31.**

# ŞUŞA AZƏRBAYCANIN TARİX, MƏDƏNİYYƏT TOLERANTLIQ VƏ MULTİKULTURALİZM MƏRKƏZİDİR

***Əliyev Sədrəddin Malik oğlu***
***Gəncə Dövlət Universitetinin***
***Sedreddin.elixanli@mail.ru***

**Xülasə:** *Azərbaycanda multikultural cəmiyyət çoxlu saylı xalqların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və sülh şəraitində yaşaması deməkdir.Multikulturalizm adlandırdığımız birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən münasibətləri bütün tarixi dövrlərdə görə bilərik. Xalqımızın zəngin multikultural ənənələri tolerantlığa, dialoqa, kompromisə, qarşılıqlı yardıma, vətənpərvərliyə, mərhəmətə, birgəyaşayış qaydalarına əsaslanır. Azərbaycanda mövcud olan etnik-dini dözümlülük və milli-mədəni müxtəliflik mühiti ölkəmizi dünya miqyasında çoxmillətli, çoxkonfessiyalı və mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı kimi tanıtmışdır. Ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri qarşılıqlı dostluq,əminamanlıq, sülh və əməkdaşlıq şəraitində yaşayır, respublikanın ictimai-siyasi, iqtisadi və mədəni inkişafında mühüm rol oynayır, eyni zamanda, Azərbaycanın taleyüklü məsələlərində yüksək həmrəylik nümayiş etdirirlər. Azərbaycanda tarixində elə bir dövr yoxdur ki ,bu ərzidə yalnız azəri türkləri yaşasın. Bizimlə yanaşı ləzgilər, yəhudilər saxurar, avarlar, talışlar, ingiloylar, malokanlar udilər, tatlar, kürdlər və başqa etnik xalqlar yaşamışlar. Azərbaycan xalqı digər etnik xalqlara qarşı ayrı seçkilik etməyib onları ərazisindən qovmayıb. Azərbaycanda yaşayan digər, milli azlıqlar xalqımızla qaynayıb qarışıb, ortaq mədəniyyətli olublar. Dövlətimiz Qarabağın dağlıq hissəsində yaşayan erməniəsilli vətəndaşlarımızı da bu qəbilə aid edir. Onların Azərbaycan qanunlarını qəbul etməsi və digər etnik azlıqlar kimi, Konstitusiyada bərqərar olmuş hüquqlarının bərpası dövlətimizin ən prioritet məsələsidir. 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.*